# Milli Kitabxananın biblioqrafik fəaliyyəti
## informasiya mədəniyyətinin formalaşması sistemində

**Mədəniyyət insanın tərbiyə və təhsilində, intellektual inkişafında, biliklərə yiyələnməsində, cəmiyyətin əldə edib topladığı biliklərin, təcrübənin, vərdişlərin, habelə mənəvi sərvətlərin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır. Təhsil, tərbiyə, xalq maarifinin inkişafı, mədəni quruculuq sahəsində görülən işlər cəmiyyətin mədəni səviyyəsinin mühüm göstəricisidir. Mədəniyyətin yaradıcısı olan insan həm də onun məhsulu kimi meydana çıxır [3, s.12].**

Bu gün hər bir şəxsin informasiya mədəniyyəti müvəffəqiyyətli professional, tədris, şəxsi təhsil və digər fəaliyyət növlərinin, həmçinin şəxsiyyətin sosial müdafiəsinin vacib faktoruna çevrilmişdir. Şəxsiyyətin informasiya mədəniyyətinin səviyyəsi ilk növbədə baza bilikləri və informasiyanın axtarışı, işlənməsi sahəsindəki bacarıqları ilə müəyyən edilir.

İnformasiya mədəniyyəti insanın ümumi mədəniyyətinin bir hissəsidir. Eyni zamanda, ümumi mədəniyyətin digər komponentlərinin formalaşmasının müəyyən dərəcədə informasiya mədəniyyətinin səviyyəsindən asılı olduğunu söyləmək olar. Yüksək informasiya mədəniyyəti insana istənilən növ informasiya ilə işləmək, həm gündəlik həyatında, həm də peşəkar fəaliyyətində bu informasiyadan səmərəli istifadə etmək imkanı verir.

Məlum olduğu kimi, böyük həcmli informasiya axınında insanın ənənəvi istiqamətləndiricisi biblioqrafiyadır. O, hər bir şəxsi sənəd axınında istiqamətləndirərək informasiya ilə yüklənməkdən xilas edir, informasiya ilə tələbatçı arasında əsas vasitəçi kimi çıxış edir. Böyük həcmli informasiyalarla müstəqil şəkildə işləyərkən mənbədən asılı olmayaraq biblioqrafik vasitələr və biblioqrafik fəaliyyət metodlarını tətbiq etmədən istifadəçilərin işi müsbət nəticə verə bilməz. Xüsusi biblioqrafik vərdişlər şəxsin ümumi elmi bilik və bacarıqlarının tərkibinə daxildir.

İstifadəçilərin biblioqrafik informasiya fəaliyyəti-informasiyanın axtarışı, seçilməsi, işlənməsi və sonrakı istifadəsi üzrə fəaliyyət olmaqla yanaşı, eləcə də biblioqrafik metod və vasitələrdən istifadə etməklə yeni informasiyanın müxtəlif formalarda hasilatı- istehsalı kimi başa düşülür. Biblioqrafik-informasiya fəaliyyətinin predmeti kağız və elektron daşıyıcılarda mövcud olan informasiya, həmçinin qlobal şəbəkədə mövcud olan İnternet resurslarıdır.

Biblioqrafik vasitələr dedikdə kitabxanaların soraq-biblioqrafiya aparatı, elektron kataloqlar, biblioqrafik vəsaitlər, İnternetin axtarış sistemləri nəzərdə tutulur. İnformasiya ilə müstəqil-sərbəst işləyərkən istifadəçilər professional səviyyədə olmasa da, qismən biblioqrafik fəaliyyət metodlarını: mənbələrin biblioqrafik axtarışı, axtarış əlamətlərinin seçilməsi, mənbələrin seçilməsi, qruplaşdırılması və biblioqrafik xüsusiyyətləri, yeni biblioqrafik təsviri, annotasiyası, icmalı və s. mənimsəməlidirlər.

İnformasiya mədəniyyətinin biblioqrafik komponentinin formalaşması prosesi istifadəçilərin informasiya ilə qarşılıqlı əlaqəsi zamanı bütün mərhələlərdə qarşıya çıxan problemlərin müstəqil həll edilməsinə yönəlmiş istifadəçilərin hazırlıq səviyyəsinin şərtlərindən biri kimi nəzərdən keçirilir. Bu yanaşmada istifadəçilərin informasiya-biblioqrafiya fəaliyyətinin tam bir proses kimi təşkili zəruridir: axtarışın məqsədi-informasiya tələbatı-informasiyanın mənbəyi-informasiya.

Müasir dövrdə cəmiyyətdə baş verən çox ciddi sosial-iqtisadi dəyişikliklər bütün dünya miqyasında, o cümlədən müstəqil Azərbaycan Respublikasında informasiya tələbatlarının xarakterinin, məqsədinin, məzmununun, istiqamətinin dəyişməsinə hərtərəfli təsir göstərir. Bütün bunlar əməyin xarakter dəyişikliyi, intellektuallaşması, differensasiyalaşması ilə müqayisə olunur, təhsilin və peşə biliyinin səviyyəsinə tələbatı artırır, informasiya axınının daha da sürətlənməsinə, bununla da elmi, təbii, texniki və başqa məsələlərin artmasına səbəb olur və eyni zamanda kitabxana-biblioqrafiya və başqa informasiya ehtiyatlarından səmərəli istifadəyə ehtiyacı gücləndirir [2, s.82].

Biblioqrafik fəaliyyətin son məqsədi insanın informasiya tələbatının ödənilməsinə təsir göstərməkdir. Deməli, biblioqrafik fəaliyyətin son nəticəsi həmin tələbatların ödənilməsinin reallaşdırılmasıdır. Biblioqrafik fəaliyyətin əsas prosesləri biblioqrafiyalaşdırma və biblioqrafik xidmət kimi iki istiqaməti özündə əks etdirir. Biblioqrafiyalaşdırmanın ümumi nəticəsi biblioqrafik vəsaitlərdir. Hazırda kitabxanalarda hazırlanan biblioqrafik vəsaitlər oxucuların informasiya tələbatlarının ödənilməsində böyük rol oynayır.

Biblioqrafik informasiyaya məxsus olan əsas cəhətlərdən biri onun ikimeylliyidir, yəni biblioqrafik informasiya bir tərəfdən bilavasitə sənədlərə əsaslanaraq, digər tərəfdən sənədlərlə bərabər informasiya istifadəçilərinə müraciət olunmaqla onların qarşılıqlı əlaqəsini nəzərə almaqla yaradılır [1, s.28.]. Beləliklə, biblioqrafiyanın növ təsnifatında əsas götürülən əlamət onun ictimai istiqamətidir ki, bu da biblioqrafiyanı iki sahəyə və ya növə ayırır: ümumi və xüsusi biblioqrafiya.

Ölkənin sosial-iqtisadi, mədəni inkişafında kitabxanaların, onların biblioqrafik fəaliyyətinin əhəmiyyəti getdikcə artır. İndi ölkəmizdə böyüklüyündən, kiçikliyindən asılı olmayaraq elə kitabxana yoxdur ki, orada biblioqrafik iş aparılmasın və ya biblioqrafiyadan istifadə olunmasın. Kitabxanalarımız biblioqrafik fəaliyyətin təşkilati mərkəzlərindəndir, həm də biblioqrafik informasiyanın yayılması kanallarından biridir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının biblioqrafik fəaliyyətini tarixən nəzərdən keçirsək görərik ki, onun biblioqrafik fəaliyyəti çoxsahəliliyinə görə fərqlənir. Burada həm biblioqrafiyalaşdırma, həm də biblioqrafik xidmət prosesi uğurla həyata keçirilir. Həm ümumi, həm də xüsusi biblioqrafik informasiya mənbələrinin, şəxsi, tövsiyə, cari biblioqrafik göstəricilərin yaradılmasında Milli Kitabxananın fəaliyyəti danılmazdır. Bu baxımdan Milli Kitabxananın son 5 illik biblioqrafik fəaliyyətinə nəzər salmaq məqsədəuyğun olardı.

Çap əsərlərinin sayca artması, mövzu dairəsinin genişlənməsi, oxucu marağının və sorğusunun mürəkkəbləşməsi kitabxananın biblioqrafik fəaliyyətinin kitab-oxucu sistemində öz vasitəçilik funksiyasını həyata keçirməsini tələb edirdi.

2005-ci ildən etibarən kitabxana bu sahədə fəaliyyətini bərpa edərək ölkə ərazisində dərc olunan ədəbiyyatın retrospektiv və cari biblioqrafiyasının tərtibində və kitab nəşri statistikasının aparılmasında mühüm əhəmiyyət kəsb edən ümumi biblioqrafik vəsaitlərdən "Birillik Azərbaycan kitabiyyatı", 2007-ci ildən isə "Yeni kitablar"(annotasiyalı biblioqrafik göstərici) adlı göstəricilərin çapına başladı.

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası və Dövlət Kitab Palatasının təcrübəli mütəxəssisləri tərəfindən çapa hazırlanmış "Birillik Azərbaycan kitabiyyatı-1990" (2005) adlı vəsaitdə 1990-cı ildə Azərbaycan Respublikası ərazisində nəşr edilmiş dilindən, mövzusundan, janrından asılı olmayaraq 829 kitab və kitabça barəsində biblioqrafik informasiya öz əksini tapmışdı.

Toplanmış materiallar elm və fəaliyyət sahələri üzrə dövlət biblioqrafiya orqanlarında istifadə edilən "Vahid təsnifat sxemi" əsasında təsnifləşdirilmişdir. Bölmələr daxilində əvvəlcə Azərbaycan və rus dillərində olan materiallar ayrıca verilmiş, daxildə əlifba prinsipi gözlənilmişdir. Vəsaitin sonunda statistik göstəricilər və vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə köməkçi aparat - müəlliflərin və əsərlərin sərlövhəsinin əlifba göstəricisi verilmişdir.

2005-ci ildə "Birillik Azərbaycan kitabiyyatı-1991", "Birillik Azərbaycan kitabiyyatı-2000" ikinci və üçüncü buraxılışlar da işıq üzü görmüşdü. Bundan sonra ardıcıl olaraq "Birillik Azərbaycan kitabiyyatı"nın müxtəlif sayları nəşr edilmiş və indi də bu proses uğurla davam etdirilir. 2007-ci ildə vəsaitin 2001, 2003, 2004-cü illəri əhatə edən buraxılışları, 2008-ci ildə 2005, 2006-cı illər, 2009-cu ildə 1992, 2002, 2006, 2007-ci illər, 2010-cu ildə isə 1999 və 2008-ci illəri əhatə edən buraxılışlar nəşr edilmişdi.

Tarixi-xronoloji və nəşriyyat tarixi baxımından özündə çox qiymətli məlumatları əks etdirən bu vəsaitlər ayrı-ayrı elm sahələri üzrə elmi tədqiqatların və araşdırmaların aparılmasında əvəzsiz rol oynamaqla yanaşı, həmçinin ölkə ərazisində dərc olunan bütün çap məhsullarını toplu şəkildə özündə əks etdirərək bütün oxucu qruplarının, mütəxəssislərin, alimlərin, ziyalıların, tədqiqatçıların, o cümlədən kitabxanaçıların daha çox müraciət etdikləri məlumat nəşrləri kimi də əhəmiyyət kəsb edirlər.

Milli Kitabxana "Birillik Azərbaycan kitabiyyatı" ilə yanaşı 2006-cı ildən öz fonduna daxil olan yeni ədəbiyyatın cari biblioqrafik göstəricilərini tərtib etməyə başlamışdır. "Yeni kitablar" adlı cari biblioqrafik informasiya göstəricisi hər rübdə bir dəfə nəşr olunur və həmin dövr ərzində Milli Kitabxananın fonduna daxil olan bütün yeni ədəbiyyat orada öz əksini tapır. Burada Azərbaycan, rus və digər xarici dillərdə olan bütün nəşrlər əhatə olunur. Materiallar elm sahələri üzrə qruplaşdırılır və oxucuların istifadəsini asanlaşdırmaq məqsədilə hər kitabın qarşısında şifrələri də verilir. [5, s.20.] Vəsaiti hazırlamaqda məqsəd oxucuları, mütəxəssisləri Milli Kitabxanaya daxil olan yeni ədəbiyyatla tanış etməkdir. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədi ilə sonda müəlliflərin və sərlövhələrin əlifba göstəricisi də verilmişdir.

2007-ci ildə "Yeni kitablar" göstəricisinin 2006-cı və 2007-ci illərdə kitabxanaya daxil olmuş kitabları əhatə edən 4 buraxılışı (hər biri 2 buraxılışda), 2008-ci ildə 2007-ci ilin III, IV buraxılışları və 2008-ci ilin I buraxılışı, 2009-cu ildə 2008-ci ilin II, III, IV buraxılışları və 2009-cu ilin I buraxılışı, 2010-cu ildə isə 2009-cu ilin II, III, IV buraxılışı, 2010-cu ilin isə I, II buraxılışları çap olunub oxucuların istifadəsinə verilmişdir.

Bununla yanaşı Milli Kitabxananın saytında da yeni kitablar adlı bölmə yerləşdirilmişdir ki, burada oxucular il ərzində kitabxanaya daxil olan ədəbiyyat haqqında məlumat əldə edə bilərlər. Təkcə 2010-cu ildə kitabxananın fonduna 22 767 nüsxə yeni ədəbiyyat daxil olmuşdur ki, bunun 15 077 nüsxəsi kitab, 7690 nüsxəsi isə digər sənədlərdir [4, s.2]. 2010-cu ildə dövri mətbuat bölməsinə 709 adda ədəbiyyat daxil olmuşdur ki, bunun 3251 nüsxəsi jurnal, 1012 nüsxəsi qəzet, 88 nüsxəsi isə elmi əsərlərdir [4, s.27].

M.F. Axundov adına Milli Kitabxananın Analitik elektron məlumat bazasının təşkili şöbəsi 2006-cı ilin aprel ayından "Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat" adlı ayda bir dəfə nəşr edilən cari biblioqrafik informasiya göstəricisi hazırlayır. Bu vəsaiti nəşr etməkdə məqsəd Mədəniyyət və Turizm Nazirliyinin rəhbər işçilərinə və aparıcı mütəxəssislərinə, eləcə də mədəniyyət, incəsənət və turizm sahəsində fəaliyyət göstərən mütəxəssislərə, bu sahə ilə maraqlanan oxuculara müvafiq mövzu üzrə Azərbaycan və rus dillərində kitabxanaya daxil olan yeni kitablar, bəzi jurnal və qəzet səhifələrində dərc edilən məqalələr haqqında operativ məlumat verməkdir. Eyni zamanda mütəxəssislərin istifadəsini asanlaşdırmaq üçün kitabların şifrələri və sonda göstəricidə istifadə olunmuş qəzet və jurnalların siyahısı verilmişdir.

188/13

Vəsaitdə qarşısında ulduz işarəsi qoyulmuş məqalələrin tam elektron mətnini Milli Kitabxananın saytı (www.anl.az <http://www.anl.az/>) və elektron kataloqu vasitəsilə açıb oxumaq mümkündür. Digər materialların isə kserosurətlərini və elektron variantını əks əlaqə vasitəsilə istifadəçilərə çatdırmaq olar.

2008-ci ildən başlayaraq Milli Kitabxana Azərbaycanın xarici ölkələrlə qarşılıqlı əlaqələri haqqında məlumat verən tövsiyə göstəriciləri hazırlamağa başladı. 2 il ərzində (2008, 2009) 24 göstərici hazırlandı. Burada Azərbaycanın Rusiya, ABŞ, İngiltərə, Yaponiya, Fransa, Almaniya, Türkiyə, Çin, Koreya, Polşa, İran, Belçika, Avstriya, Belarus, Türkmənistan, Hindistan, Tacikistan, Qazaxıstan, Qırğızıstan, Pakistan kimi ölkələrlə yanaşı Avropa Şurası, Avropa İttifaqı, NATO, GUAM kimi təşkilatlarla beynəlxalq, iqtisadi-siyasi, elmi, mədəni əlaqələrindən bəhs edən kitablar, qəzet və jurnal məqalələri haqqında hüquqşünaslara, iqtisadçılara, siyasətçilərə və eləcə də geniş oxucu kütləsinə dəyərli informasiya çatdırılmışdır.

Milli Kitabxana həmçinin dövrün aktual problemləri, daha çox ictimaiyyəti maraqlandıran məsələlərlə əlaqədar oxucuların informasiya təminatının ödənilməsinə kömək məqsədilə müxtəlif aktual mövzularda biblioqrafik göstəricilər də hazırlayıb çap etdirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)"nın həyata keçirilməsi istiqamətində görülən işlər respublikamızın kütləvi informasiya vasitələrində, yeni yazılan ədəbiyyat və elmi tədqiqatlarda geniş əks olunmuşdur. Bu haqda oxucuları məlumatlandırmaq məqsədilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" (I buraxılış, 2007; II buraxılış, 2009) adlı göstərici hazırlanmış və mövzu ilə əlaqədar kitab, qəzet və jurnal materiallarını, rəsmi sənədləri əhatə etmişdir.

Respublika ictimaiyyətinin, müəllimlərin, dövlət qulluqçularının, alimlərin, tədqiqatçıların, mütəxəssislərin ümummilli lider, ulu öndər, XX əsrin görkəmli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin fəaliyyətini əks etdirən və 1997-ci ildən nəşr olunmağa başlanmış "Müstəqilliyimiz əbədidir" çoxcildliyinə olan böyük tələbatı və marağını nəzərə alaraq "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyin I-IX cildlərinin köməkçi göstəricisi (Qeydlər, mövzu, şəxsi və coğrafi adlar göstəricisi) 2008-ci ildə və "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyin X-XXVIII cildlərinin köməkçi göstəricisi (Qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri) 2010-cu ildə çap edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti haqqında tərtib olunmuş - ADR-in yaranmasını, fəaliyyətini və süqutunu, onun ictimai-siyasi xadimlərinin həyat və fəaliyyətini 1918-ci ildən 2008-ci ilə qədər olan dövrü əhatə edən kitab, qəzet və jurnal materialları, rəsmi sənədlərdən ibarət "Azərbaycan Xalq Cümhuriyyəti-90 (1918-1920)" (2008) adlı biblioqrafik göstərici; Vətənimizin tarixində, millətimizin ürəyində özlərinə ölməzlik abidəsi ucaldan Azərbaycanın Milli Qəhrəmanlarına həsr edilmiş, 1992-2007-ci ilin may ayına qədər kitab, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş publisistik məqalələr və bədii ədəbiyyat nümunələri toplanmış "Azərbaycanın Milli Qəhrəmanları" (2008) adlı vəsait, ulu öndərimiz Heydər Əliyevin reallaşmış dahiyanə ideyası olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin başa çatması, rəsmi açılışı və tarixi haqqında Milli Kitabxananın fonduna daxil edilmiş 1994-2006-cı illəri əhatə edən kitab, qəzet və jurnal məqalələri (Azərbaycan, rus dillərində) əhatə olunmuş "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri" (2008) biblioqrafik göstəricisi oxucular tərəfindən böyük maraqla qarşılanmışdır.

2004-cü ildə ulu öndərin siyasətini əks etdirmək, yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

daim aşılamaq, təbliğ etmək niyyətindən irəli gələrək yaradılmış Heydər Əliyev Fondunun fəaliyyətinə həsr olunmuş kitablar və dövri mətbuat materiallarını əhatə edən "Heydər Əliyev Fondu" (2009) adlı biblioqrafik göstərici; müasir dövrdə bütün dünya ictimaiyyətini narahat edən qlobal təhlükəyə çevrilmiş terrorizmə qarşı Azərbaycanın mübarizəsini əks etdirən, müstəqillik dövründən başlayaraq 2009-cu ilin iyun ayına qədərki dövrü əhatə edən kitablar, qəzet və jurnal məqalələri haqqında informasiyalar toplanmış "Beynəlxalq terrorizm və onun Azərbaycana mənfi təsiri" (2009), Dövlət siyasətinin vacib istiqamətlərindən biri olan ekologiyanın, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması, ekoloji mühitin sağlamlaşdırılması, ümumiyyətlə ekologiya ilə bağlı dərc olunan 1997-2008-ci illəri əhatə edən materialların toplandığı "Azərbaycan ekologiyası - 10 ildə" (2009) adlı göstərici, Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı dərc olunan materialların toplandığı "Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı" (2009) adlı biblioqrafik göstəricilər həm bu sahələrlə maraqlanan mütəxəssislər, həm də geniş oxucu kütləsi üçün əhəmiyyətli mənbələrdir.

Milli Kitabxana Azərbaycanın elm və mədəniyyət xadimləri, Azərbaycanın görkəmli şəxsiyyətləri seriyasından silsilə şəxsi biblioqrafik göstəricilər də çap etmişdir. Bu vəsaitlərdən SSRİ məkanında kitabxana işinin tarixi sahəsində ilk elmlər doktoru kimi şöhrət qazanmış və Azərbaycan kitabxanaşünaslıq elmi məktəbinin əsasını qoymuş, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü (akademiki), əməkdar elm xadimi, Azərbaycan Respublikası Prezidentinin Fəxri təqaüdçüsü Abuzər Xələfovun həyat və yaradıcılığına həsr olunmuş "Abuzər Xələfov" (2006) adlı biblioqrafiya; Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin həyat və yaradıcılığının 1926-cı ildən 2005-ci ilin avqust ayına qədər olan bir dövrü əhatə edən "Mir Cəlal" (2006) biblioqrafiyası, klassik və müasir musiqinin uğurlu sintezini yaradaraq mədəniyyətimizin inkişafına dəyərli töhfələr vermiş dahi Azərbaycan bəstəkarı, görkəmli alim-pedaqoq, ictimai xadim, akademik Qara Əbülfəs oğlu Qarayevin anadan olmasının 90 illiyi münasibətilə dünya şöhrətli bəstəkarın 1937-ci ildən 2008-ci ilin sentyabrınadək çap olunmuş əsərləri və onun haqqında dərc olunan materiallar əhatə olunmuş "Qara Qarayev" (2008) biblioqrafiyası, Azərbaycanın xalq rəssamı, əməkdar incəsənət xadimi, müasir Azərbaycanın boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri olan Səttar Bəhlulzadənin həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında ürək sözləri və rəssam haqqında çap olunmuş materiallar toplanmış "Səttar Bəhlulzadə-100" (2009) adlı biblioqrafiya; Yazıçılar Birliyinin üzvü, fədakar ziyalı, tədqiqatçı, tanınmış şair və ictimai xadim Teyyub Qurbanın anadan olmasının 75 illiyinə həsr olunmuş Teyyub Qurbanın həyat və yaradıcılığının 1950-ci ildən 2009-cu ilə qədər olan bir dövrü əhatə edilmiş, şairin kitabları, dövri mətbuatda və məcmuələrdə çapdan çıxmış əsərləri, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, redaktə etdiyi əsərlər, müəllifin həyat və yaradıcılığı haqqında materiallar öz əksini tapmış "Teyyub Qurban-75" (2009) adlı biblioqrafik göstəricilər oxucuların bu mövzular üzrə informasiya tələbatlarını ödəmək məqsədilə tərtib edilmişdir.

"Fiktər Əmirov" (2009) adlı vəsaitdə görkəmli bəstəkar, SSRİ Xalq artisti, SSRİ və Azərbaycanın Dövlət mükafatı laureatı, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, tanınmış ictimai xadim Fikrət Əmirovun həyat və yaradıcılığını əks etdirən 1941-ci ildən 2009-cu ilə qədər çap olunan materiallar əks etdirilmiş, "Üzeyir Hacıbəyli" (2009) biblioqrafiyasında isə Azərbaycan musiqisinin klassiki, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, professor Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin həyat və yaradıcılığının 1905-ci ildən 2008-ci ili əhatə edən musiqi əsərləri, kitabları, ayrı-ayrı məcmuələrdə, jurnallarda və qəzetlərdə dərc olunmuş məqalələr, eləcə də bəstəkar haqqında materiallar toplanmışdır. Bunlarla yanaşı Milli Kitabxananın saytında (www.anl.az <http://www.anl.az/>) "Heydər Əliyev irsi", "Mir Cəlal Paşayev", "Qara Qarayev", "Üzeyir Hacıbəyli" adlı zəngin elektron məlumat bazaları da yerləşdirilmişdir.

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, əməkdar incəsənət xadimi, tanınmış yazıçı-dramaturq Mahmudov Sabit Kərim oğlunun (Sabit Rəhman) həyat və yaradıcılığının 1926-cı ildən 2010-cu ilə qədər olan bir dövrü əhatə olunmuş "Sabit Rəhman-100" <http://www.anl.az/down/rs_biblioqrafiya.pdf> (2010) adlı biblioqrafik göstərici; XX əsr Azərbaycan teatr və kino sənətinin inkişafında əvəzsiz xidmətləri olan görkəmli şəxsiyyət, əməkdar incəsənət xadimi, Azərbaycanın və SSRİ-nin xalq artisti Adil İsgəndərov haqqında, "Azərbaycanın görkəmli teatr və kino xadimi Adil İsgəndərov" (2010) biblioqrafiyasını nümunə göstərmək olar.

Qələbənin 65 illiyinə həsr olunmuş "Azərbaycan aviatorları Böyük Vətən müharibəsində" (2010) biblioqrafik vəsaitində Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin qazanılmasında müstəsna rolu olan Azərbaycan aviatorları haqqında 1941-ci ildən 2010-cu ilə qədər olan kitablar, dövri mətbuatda və məcmuələrdə dərc olunmuş Azərbaycan və rus dillərində məqalələr əhatə olunmuş, "Xəqani Məmmədov" (2010) biblioqrafiyası isə anadan olmasının 55 illiyi, elmi pedaqoji fəaliyyətinin 35 illiyi münasibətilə müasir Azərbaycan tarix elminin görkəmli nümayəndələrindən biri, tarix elmləri doktoru, professor Xəqani Məmməd oğlu Məmmədovun elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətinin 1980-ci ildən 2010-cu ilin iyul ayınadək olan dövrü əhatə edilmişdir.

"Bərdə və bərdəlilər" (2010) biblioqrafik məlumat kitabında Azərbaycanın ən qədim və şöhrətli şəhərlərindən olan Bərdənin tarixi, tarixi abidələri və görkəmli şəxsiyyətləri, Bərdə şəhidləri haqqında məlumat verilməklə Bərdə haqqında yazılmış şeirlərin bir qismi toplanmış, "Bərdə yazılı mənbələrdə" başlığı altında Bərdə haqqında kitab, qəzet və jurnallarda dərc olunmuş materiallar haqqında biblioqrafik məlumat toplanmışdır.

Milli Kitabxananın biblioqrafik xidmətindən danışarkən biblioqrafların fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. Böyük kitabxanalarda növbətçi biblioqraflar olur ki, onlar kitabxanaya ilk gələn oxucularla iş apararaq onlara istədiyi materialı tapmaq üçün kitabxananın kataloq və kartoteka sistemində axtarış aparmaq, elektron kataloq və elektron kitabxanadan istifadə etmək kimi ilkin vərdişlərə yiyələnməkdə yardım edirlər.

Həmçinin oxucuların biblioqrafik mənbələrə müraciət etməklə onlardan istifadə texnikasını mənimsəməkdə biblioqraflar böyük rol oynayır. Eyni zamanda müxtəlif fərdi şəxslərdən, idarə və təşkilatlardan müxtəlif mövzularda, müxtəlif məqsədlərlə daxil olan sorğuların ödənilməsi də biblioqrafların üzərinə düşür. Məlumat üçün deyək ki, təkcə 2010-cu ildə biblioqraflar tərəfindən 26193 şifahi, 1073 yazılı biblioqrafik sorğu ödənilmişdir.

Bəzən biblioqrafa verilən sorğu onu tərtib edən adamın əsl marağına tamamilə uyğun gəlməyə bilər. Çox vaxt sorğuya görə oxucunun əsl tələbatları və maraqları haqqında hökm vermək olmur. Bununla belə biblioqraf elmin, xalq təsərrüfatının, mədəniyyətin, tərbiyə işinin və s. inkişafı ilə şərtləşən, respublikamızda və dünyada gedən köklü dəyişikliklər fonunda tələbatların əsl mahiyyətini öyrənməli və dəqiqləşdirməlidir.

Beləliklə, biblioqraf ona gələn sorğuya cavab verməklə yanaşı, həm də onu dürüstləşdirməyə, oxucunun marağına nə dərəcədə uyğun gəlib gəlmədiyini dəqiqləşdirməyə, onların məzmununa və quruluşuna biblioqrafik vasitələrlə təsir göstərməyə çalışmalı və nəhayət oxucularda sənəd tələbatını məqsədyönlü inkişaf etdirməyi və formalaşdırmağı bacarmalıdır. Bu səbəbdən də biblioqrafların üzərinə çox böyük məsuliyyət düşür və onlar təkcə kitabxana-biblioqrafiya mənbələrindən deyil, İnternetin də axtarış sistemlərindən istifadə etməli və daima biliklərini təkmilləşdirməlidirlər.

**Adilə ABDULLAYEVA,**
*AMEA-nın Mərkəzi Elmi Kitabxanasının doktorantı*

## Ədəbiyyat

1. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: dərslik B. Bakı Dövlət Universitetinin nəşriyyatı-2007.
2. Əliyev Z. H. Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir. "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnalı. 2004 - №1.
3. Xələfov A.A. Cəmiyyət və mədəniyyət. "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və təcrübi jurnalı. 2010 - № 3.
4. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2010-cu il üçün hesabatı.
5. Tahirov K.M. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası müstəqillik illərində. "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və təcrübi jurnalı. 2010 - № 1.

### Резюме

В статье говорится о роли библиографии в структуре информационной культуры, и о важности правильной организации библиографического дело в формировании информационной культуры читателей. Практически описывается 5-летний библиографический деятельность, библиографические издании и библиографическое обслуживание Азербайджанской Национальной Библиотеки им. М.Ф. Ахундова.

### Summary

Article talks about the role of bibliography as the part of the information culture and importance of organizing bibliographic work in a right manner for shaping readers information culture. 5 year bibliographic activity, bibliographic publications and bibliographic service of Azerbaijan National Library were also practically lightened.